# Mühüm vəzifələr qarşısında

Son illərdə bu sahədə xeyli işlər görülmüşdür. İlk növbədə mədəniyyət müəssisələrinin şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə diqqət xeyli artırılmışdır.

Söhbət zamanı şöbə müdiri Zahid Abbasov bildirdi ki, hazırda şəbəkəmizə 8 uşaq musiqi məktəbi, 32 kitabxana, 1 MKS, 7 mədəniyyət evi, 17 klub, 1 muzey və 1 Dövlət rəsm qalereyası daxildir. Bu müəssisələrdə çalışanlar rayon səviyyəli tədbirlərin həyata keçirilməsində fəallıq göstərir, öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməyə səy edirlər.

Şuşa Rayon Mədəniyyət və Turizm Şöbəsi tərəfindən hər il olduğu kimi, keçən il də şəhərin işğalı günü ilə bağlı Ü.Hacıbəyovun ev muzeyində Şuşa şəhərindən xilas edilərək gətirilmiş eksponatların sərgisi keçirilmişdir.

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən keçirilən «Yaddan çıxmaz Qarabağ» ictimai-siyasi aksiya çərçivəsində M.F.Axundov adına Respublika kitabxanasında Qarabağa dair son vaxtlar nəşr edilən kitabların və S.Bəhlulzadə adına sərgi salonunda Şuşa şəhərinin erməni işğalçıları tərəfindən dağıdılmış abidələrinin sərgisi təşkil olunmuşdur.

Respublika Mədəniyyət və Turizm Nazirliyinin uşaq musiqi məktəbləri arasında ötən il keçirdiyi xor müsabiqəsində Şuşa uşaq musiqi məktəblərinin kollektivləri müvəffəqiyyətlər qazanmış, Nazirliyin diplom, fəxri fərmanlarına layiq görülmüşlər. 2006-cı il bir sıra digər hadisələrlə də mədəniyyət işçiləri üçün uğurlu olmuşdur. Nazirliyin Astara rayonunda uşaq muğam və Şəmkirdə keçirdiyi uşaq aşıq Respublika müsabiqələrində şuşalı uşaqlar yaşıdları arasında istedad və bacarıqları ilə fərqlənmiş, II, III yerləri tutaraq, diplom, pul mükafatları əldə etmişlər. Bu nailiyyətlər, ilk növbədə onlarla məşğul olan müəllimlərin əməyinin nəticəsidir.

Son vaxtlar rəsm qalereyasında da xeyli işlər görülmüşdür. Qalereyanın fonduna 200-dən artıq foto və rəsm əsəri daxil edilmiş, Şuşa şəhərinin qədim 17 məhəlləsinin yağlı boya ilə







*Şuşa Azərbaycanın zəngin və qədim tarixi olan mədəniyyət mərkəzlərindən biridir. Bu ecazkar torpaq ədəbiyyat, incəsənət və mədəniyyət xəzinəmizə bir çox dahi şəxsiyyətlər bəxş etmişdir. Azərbaycanın dilbər guşəsi sayılan Şuşa erməni qəsbkarları tərəfindən işğal olunandan sonra rayonun mədəniyyət müəssisələri müvəqqəti olaraq əsasən paytaxtda məskunlaşmışlar.*

*Şuşa Rayon Mədəniyyət və Turizm Şöbəsində çalışan əməkdaşların əsas məqsədi ondan ibarət olmuşdur ki, belə bir çətin vaxtda şəhərin mədəniyyətini qoruyub yaşatsınlar və daha da inkişaf etdirsinlər.*

əsərləri işlənib başa çatdırılmışdır.

Şuşa Rayon Mədəniyyət və Turizm Şöbəsinin şəbəkəsinə daxil olan müəssisələrin işində göstərilən müvəffəqiyyətlərlə yanaşı bəzi nöqsanlar da mövcuddur. Musiqi müəssisələrində bütün musiqi məktəbləri əhatə olunmamışdır. «Şuşa bahadırları», «Muğam» xalq çalğı alətləri ansambllarının fəaliyyəti ürəkaçan deyildir. Rayonun kənd icra nümayəndələri tabeliklərində olan mədəniyyət işçilərinin sosial vəziyyəti ilə maraqlanmırlar.

2006-cı ildə Şuşa Rayon İcra Hakimiyyətinin sərəncamı ilə Zağulba sanatoriyasında açılmış mərkəzi kitabxananın filialının vəziyyəti yaxşı deyildir. Göndərilən kitablardan səmərəli istifadə olunmur, vaxtaşırı onların oxusu təşkil edilmir. Nəticədə sanatoriya və pansionatlarda məskunlaşanlar maariflənmədən kənarda qalırlar. Sakinlərin asudə vaxtının səmərəli təşkilinə az diqqət yetirilir.

Rəsm qalereyasının şəraitsizliyi üzündən eksponatların saxlanma şəraiti pis vəziyyətdədir. Bu barədə əlaqədar təşkilatlara dəfələrlə müraciət olunsa da hələlik heç bir nəticə yoxdur. Min bir əzabla işğaldan xilas edilərək, Bakı şəhərinə gətirilən 79 ədəd nadir xovlu xalça, 35 ədəd XIII əsrə aid xovsuz xalça, 39 ədəd çox unikal Qarabağ sənətkarlığını əks etdirən XIX əsrə aid gümüşdən hazırlanmış qiymətli zərgərlik nümunələri (kəmərlər, toqqalar, qolbağlar) yer olmaması üzündən başqa muzeyə təhvil verilmişdir.

Mədəniyyətin, turizmin inkişafı birbaşa insanların mənəvi cəhətdən zənginləşməsinə, kamilləşməsinə xidmət göstərir. Bu baxımdan mədəniyyət işçilərinin qarşısında çox əzəmətli vəzifələr durur. Ümid edirik ki, Şuşa Rayon Mədəniyyət və Turizm Şöbəsinin əməkdaşları cari ildə öhdəsinə düşən mühüm vəzifələri layiqincə yerinə yetirəcək, əhalinin rəğbət və hörmətini qazanacaqlar.

**B.ASLANOV**

